**Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasında əhalinin qida məhsulları ilə etibarlı təminatı sahəsində sistemli və məqsədyönlü fəaliyyət həyata keçirilir. Ölkədə qida təhlükəsizliyinə nəzarət sistemini təkmilləşdirmək, bu sahədə şəffaflığı daha da artırmaq, pərakəndəliyi və təkrarlanmaları aradan qaldırmaq məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 fevral tarixli 1235 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi yaradılmış və Agentlik 2018-ci il yanvarın 1-dən fəaliyyətə başlamışdır.

Qida zəncirinin bütün mərhələlərində qida təhlükəsizliyinə və qida məhsulları istehlakçılarının hüquqlarının müdafiəsinə dövlət nəzarətini, habelə qeyd olunan sahələrdə dövlət siyasətini və tənzimləməsini həyata keçirəcək Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin qarşısında daxili bazarın keyfiyyətsiz və insan orqanizmi üçün zərərli mallardan qorunması, habelə ixrac olunan qida məhsullarının qida təhlükəsizliyi baxımından sertifikatlaşdırılması ilə bağlı mühüm işlər durur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi, habelə bu sahədə zəruri infrastrukturun formalaşdırılması, həyata keçirilən işlərin daha da sürətləndirilməsi və səmərəliliyinin artırılması məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.84-cü bəndində nəzərdə tutulmuş vəsaitdən Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə 10,5 milyon (on milyon beş yüz min) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 7 fevral 2018-ci il
№3651